iki sahil

14 noyabr / 2020

# Narkomaniya insanların düçar olduğu çıxılmaz bataqlıqdır




Narkomaniyanı haqlı olaraq "ağ ölüm" də adlandırırlar. Mütəxəssislərin hesablamalarına görə, narkotiklərin qanunsuz dövriyyəsindən hər il onmilyardlarla dollar gəlir götürülür və bu pul xalqların həyat səviyyəsinin yaxşılaşmasına, bəzi imkansız ölkələrin iqtisadi böhrandan xilasına, böyük tikinti-quruculuq işlərinə deyil, yeni müharibə və münaqişə ocaqlarının, nüvə bazalarının, ayrı-ayrı terrorçu mərkəzlərin, mütəşəkkil cinayətkar qrupların yaradılmasına, silah alverinin güclənməsinə və digər cinayətkar aksiyalara sərf olunur. Həm də narkomaniyaya və narkobiznesə qarşı mübarizə ilə əlaqədar bəşəri qanunlar qəbul etmiş superdövlətlərin gözləri qarşısında.İşğal altında olduğu illərdə Dağlıq Qarabağda və Azərbaycanın işğala məruz qalmış digər ərazilərində onlarca narkotik laboratoriya fəaliyyət göstərməkdə idi. Azərbaycanın silahlı münaqişə şəraitində olan nəzarətsiz ərazilərindən hər il Rusiyaya və Avropa ölkələrinə ontonlarla narkotik maddələr daşınırdı.

Azərbaycan Respublikası Prezidentinin "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Sərəncamı insanları sağalmaz xəstəliklərə düçar edən bu dəhşətli bəlaya qarşı mübarizə sahəsində atılmış ən xeyirxah addım kimi dəyərləndirmək gərəkdir. Sərəncamda bəşəriyyətin bu dəhşətli bəlasına qarşı ayrı-ayrı dövlət strukturlarının, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin, hüquq-mühafizə orqanlarının, təhsil və səhiyyə sisteminin birgə mübarizə aparması, onun qismən də olsa ayılmasının və kütləvi hal almasının qarşısının qətiyyətlə alınması təxirəsalınmaz bir vəzifə kimi qarşıya qoyulub.

Azərbaycan "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Beynəlxalq Vyana Konvensiyasına 1992-ci ildə qoşulsa da, narkotizmlə və narkobiznesla mübarizənin əsası ölkə tarixində ilk dəfə olaraq ulu öndər Heydər Əliyev tərəfindən qoyulub.

Azərbaycan 1998-ci ildə BMT-nin "Narkotik vasitələr haqqında" 1961-ci il və "Psixotrop maddələr haqqında" 1971-ci il konvensiyalarına da qoşulmuş, Milli Məclisin 18 iyun 1999-cu il tarixdə qəbul etdiyi Azərbaycan Respublikasının qanununa müvafiq olaraq, ölkəmizdə narkotik tərkibli bitkilərin kultivasiyası, narkotik vasitələrin və psixotrop maddələrin istehsalı, dərman preparatlarının və xammalın hazırlanması qadağan edilmişdir. Ulu Öndərin 15 iyul 2000-ci il tarixli Fərmanı ilə 2000-2006-cı illərdək narkomanlığın yayılmasına, narkotik vasitələrin, psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə üzrə daha bir Milli Proqram qəbul edilmiş, bu proqramın tələblərindən irəli gələn məsələlərin həlli, həmçinin aidiyyəti dövlət orqanları arasında qarşılıqlı əlaqələrin təşkil edilməsi və nəzarət mexanizminin həyata keçirilməsi məqsədilə xüsusi Dövlət Komissiyası yaradılmışdır. Azərbaycan 2000-ci ildə Avropa Şurasının tamhüquqlu üzvləri sırasında öz layiqli yerini tutduqdan sonra Avropa və dünya birliyinə inteqrasiya zəminində bu sahədəki fəaliyyətini uğurla davam etdirmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005 və 2007-ci illərdə verdiyi tarixi Fərman və sərəncamlar da "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi istiqamətində atılmış uğurlu addımlardır. 2011-ci il oktyabrın 17-də BMT-nin dəstəyi ilə "Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusunda paytaxtımızda keçirilən ikigünlük beynəlxalq konfrans da bu cəhətdən böyük əhəmiyyət kəsb etmişdir. Narkotizmlə və narkobiznesla mübarizə hər şeydən öncə ölkəmizin ərazi bütövlüyünün qorunması, onun suverenliyinin bərpası, cəmiyyətin sağlamlığının, dinclik və əmin-amanlığının mühafizəsi zərurətindən irəli gəlir. Çünki narkotizmlə və narkobiznesla mübarizə terrorizmlə mübarizənin tərkib hissəsidir. Bu sahədə ölkəmizdə normativ hüquqi baza da yaradılıb, müvafiq təşkilati strukturlar da, milli proqramlar da. Artıq 20 ildən çoxdur ki, Azərbaycan narkotizmin Yer kürəsində yayılmasının qarşısının alınmasına dair BMT-nin üç bəşəri Konvensiyası ətrafında dünya ölkələri ilə sıx əməkdaşlıq şəraitində, vahid əqidə bayrağı altında birləşərək yeni mübarizə metodları hazırlamaqda, bəşər sivilizasiyasını lərzəyə gətirən bu ölüm kabusunun qarşısının alınmasında birgə səy, hünər və əzmkarlıq nümayiş etdirməkdədir.

Respublikamızda bu qlobal problemin həlli sahəsində ölkə Prezidenti cənab İlham Əliyevin təsdiq etdiyi bir sıra proqramlar, həmçinin "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" Azərbaycan Respublikasının 18 iyun 2009-cu il tarixli Qanunu ilə bağlı Hacıqabul Rayon İcra Hakimiyyətində yaradılmış Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyaya rayonun hüquq-mühafizə orqanlarının, Gənclər və idman idarəsinin, Təhsil və Mədəniyyət şöbələrinin nümayəndələri daxil edilmişdir.

Komissiya aidiyyəti dövlət orqanları ilə birlikdə narkomanlığın yayılmasının qarşısının alınması istiqamətində görülmüş işlərin təhlilini müzakirə olunması məqsədilə "dəyirmi masa"lar keçirmiş, rayon Təhsil, Gənclər və idman idarələri ilə birgə narkomanlığı profilaktikası istiqamətində işin daha da gücləndirilməsi üçün Tədbirlər Planı hazırlayaraq təsdiq etmişdir.

2020-ci ilin müvafiq dövrü ərzində keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində Hacıqabul Rayon Polis Şöbəsi tərəfindən narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə bağlı 90 cinayət faktı qeydə alınmışdır. Bunlardan 25 fakt narkotik vasitələrin qanunsuz satışı, 60 fakt narkotik vasitələrin qanunsuz saxlaması, 5 fakt narkotik vasitələrin kultivasiyası ilə bağlı olmuşdur. Ümumilikdə keçirilən əməliyyat axtarış tədbirləri nəticəsində 5094,042 qram narkotik vasitə aşkar olunaraq dövriyyədən çıxarılmışdır. Bunlardan 157,015 qram çəkidə narkotik vasitə olan "heroin", 428,187 qram çəkidə narkotik vasitə olan "tiryək", 4509,76 qram çəkidə narkotik vasitə olan qurudulmuş "marixuana",215,544 qram digər narkotik vasitə,800,746 qram isə güclü təsiredici aşkar olunaraq götürülmüşdür.

İl ərzində rayonun ümumtəhsil məktəblərin də narkomaniyaya qarşı mübarizə mövzusunda müxtəlif tədbirlər keçirilməsi planlaşdırılsa da mövcud pandemiya şəraiti ilə əlaqədar bu tədbirlərin böyük hissəsi təxirə salındı. Buna baxmayaraq ilin ilk aylarında bəzi tədbirlər keçirilmiş və tədbirlərdə rayon İcra Hakimiyyətinin məsul işçiləri, hüquq mühafizə orqanlarının rəhbərləri və bu işə məsul olan əməkdaşları, yuxarı sinif şagirdləri və müəllimlər yaxından iştirak etmişlər.

**Nurbala Mirzəyev,**
Hacıqabul rayon İcra Hakimiyyəti Başçısının müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyanın sədri